# Tanrıdan Turana verilib bu pay



**Ey türk! Kükrə, özünə dön,**
**sən özünə dönəndə böyük olursan.**
**Bilgə Xaqan**

***Günəş qəlbimizdən doğar dünyaya,***
***İşıqla doludur içimiz bizim.***
***Dünyanı sevgiylə dolduracağıq,***
***Hər şeyə dönəndə heçimiz bizim.***

***Tanrıdan Turana verilib bu pay,***
***Bizim eşqimizdə çağlayacaq çay.***
***Bizdə danışacaq Günəş, ulduz, Ay,***
***Hər yerə gələndə ünümüz bizim.***

***Arzular dönəcək durna səfinə,***
***Uçacaq dünyanın hər tərəfinə.***
***Həyatın, varlığın şan-şərəfinə,***
***Birə min çatacaq gücümüz bizim.***

***Sağı var, solu var, yurd-yuvası var,***
***Öz sazı, öz sözü, öz havası var.***
***Hələ bu dünyayla bir davası var,***
***Hələ alınmayıb öcümüz bizim.***

***Önə bax, geriyə yol yoxdur daha,***
***Şəhidlik müqəddəs, igidlik baha.***
***Dünya dar gələcək bir padşaha,***
***Çox uzaq gedəcək kökümüz bizim.***

***Əriyib yolunda ömür də, gün də,***
***Dayaq biz olmuşuq ağır günündə,***
***Tarix yaratmışıq tarix önündə,***
***Yoxdu günahımız, suçumuz bizim.***

***Nə qədər sirr yatır sükut dilində,***
***İgidlər danışır igid dilində.***
***Dünəndən söz açır şəhid dilində,***
***Qəsrimiz, qalamız, bürcümüz bizim.***

***Yersiz öz işimi öyə bilmərəm,***
***Tarixin qəlbinə dəyə bilmərəm.***
***Bir ilmi, on ilmi, deyə bilmərəm,***
***Bir az var tezimiz-gecimiz bizim.***

***Turanın varlığı əzizdən əziz,***
***Onun hökmündədi bu çay, bu dəniz.***
***Torpağı sağlamdı, havası təmiz,***
***Olmaz çürüyümüz, puçumuz bizim.***

***Dünyaya səs salıb bir igid, bir at,***
***Min illər beləcə davam edib həyat.***
***Bizdən işıq alıb qoca kainat,***
***Yoxdu heç bir kəsə borcumuz bizim.***

*Zəlimxan YAQUB*
*Xalq şairi*

**Bakı, 2010-cu il**

Xalq qəzeti .- 2023.- 30 sentyabr.- S.9.